

# Vəfa XANOĞLAN - 70

Hörmətli Vəfa müəllim!

Sizi - tanınmış tədqiqatçı, ədəbiyyatşünas, kulturoloq və sənətşünas alimi 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Azərbaycan ədəbiyyatının cənublu nümayəndəsi Həbib Sahirin poetik yaradıcılığına həsr etdiyiniz "Hürriyyət fədaisi", "İlyas Əfəndiyev və Azərbaycan mədəniyyəti", "Ədəbi proses və ədəbi nəsil" monoqrafiyalarınız, "Sənətkar və ədəbi proses" adlı ədəbi-tənqidi məqalələr toplunuz elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Çox saylı kitabların tərtibində fəal iştirak etmisiniz.

Pedaqoji fəaliyyətiniz milli təhsilimizin inkişafı ilə sıx bağlıdır. 1974-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirdikdən sonra Füzuli rayonunun Aşağı Kürdmahmudlu kənd məktəbində müəllim, tədris işləri üzrə direktor müavini vəzifəsində çalışmısınız. 25 ildən artıq Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində çalışmısınız. Laborantlıqdan elmi katib, sənətşünaslıq fakültəsinin dekanı vəzifələrinə qədər uğurlu yol keçmisiniz. "Kino və televiziya ssenariləri" kitabınız bu gün də Sənətşünaslıq fakültəsinin tələbələri üçün gərəkli dərs vəsaitidir. Çoxsaylı proqram və metodik tövsiyələrin müəllifisiniz. Uzun illərdir tələbələrə "Azərbaycan ədəbiyyatı tarixi" fənnini tədris edirsiniz.

"Həbib Sahirin poetik yaradıcılığının inkişaf yolu" mövzusunda 1985-ci ildə dissertasiya müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsini almış, 1993-cü ildə isə dosent elmi adına layiq görülmüsünüz. 2017-ci ildə isə "XX əsrin ikinci yarısında Azərbaycan mədəniyyətində İlyas Əfəndiyevin rolu" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək sənətşünaslıq elmləri doktoru elmi dərəcəsi almısınız.

Tədqiqatlarınızın aparıcı mövzusu XX əsr Azərbaycan ədəbiyyatı məsələlərinə, teatrşünaslıq, kulturologiya və sənətşünaslıq problemlərinə həsr edilmişdir. Elmi-tənqidi məqalələriniz orijinallığı, ifadə tərzi və mövzuya baxış yeniliyi ilə seçilir.

Siz pedaqoji işi elmi yaradıcılıqla səylə birləşdirərək Azərbaycan Yazıçılar Birliyinin, Teatr Xadimləri İttifaqının üzvü kimi həm müasir ədəbi prosesə, həm də sənətşünaslığa dair diqqətə şayan məqalə və monoqrafiyalar yazırsınız. Siz eyni zamanda mətnşünaslıq və biblioqrafiya sahəsində də fəal iş görürsünüz: H.Sahirin "Məndən salam deyin gözəl Təbrizə" (2004) adlı seçilmiş əsərlərini tərtib edib geniş müqəddimə ilə çap etdirmisiniz. Səmərəli elmi fəaliyyətinizə görə 2005-ci ildə A.Bakıxanov adına mükafata layiq görülmüsünüz. 2013-cü ildə isə "Əməkdar müəllim" fəxri adına layiq görülmüsüz.

Hazırda Azərbaycan Universitetində pedaqoji fəaliyyətinizi davam etdirirsiniz.

Hörmətli Vəfa müəllim, sizi bir daha təbrik edir, elmi-pedaqoji fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**